## Dövlət Əmək Müfəttişliyi Xidmətinin 2019-cu il üzrə fəaliyyətinə dair hesabatı

2019-cu il ərzində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin vəzifəli şəxsləri tərəfindən vətəndaşlardan daxil olmuş müraciətlərin, müəssisə, idarə və təşkilatlardan göndərilən sorğu xarakterli məktubların araşdırılaraq cavablandırılması, istehsalatda baş verən bədbəxt hadisələrin mövcud qanunvericiliklə müəyyən edilmiş qaydada təhqiqatının aparılması təmin olunmuşdur.

Xidmət tərəfindən 2019-cu il ərzində "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq vətəndaşlardan daxil olmuş müraciətlərin, müəssisə, idarə və təşkilatlardan göndərilən sorğu xarakterli məktubların araşdırılaraq cavablandırılması, istehsalatda baş verən bədbəxt hadisələrin mövcud qanunvericiliklə müəyyən edilmiş qaydada təhqiqatların aparılması təmin olunmuşdur. Bu müddət ərzində vətəndaşlardan daxil olmuş 8512 şikayət məzmunlu ərizə, eləcə də müxtəlif müəssisə, idarə və təşkilatlar tərəfindən göndərilmiş 2082 məktub tərəfimizdən araşdırılaraq cavablandırılmışdır.

"Əmək müqaviləsi bildirişi" altsisteminin fəaliyyəti ilə bağlı dövlət orqanları, işəgötürənlər və vətəndaşlardan daxil olan 4240 sorğu tərəfimizdən qanunvericiliyin tələblərinə uyğun olaraq cavablandırılmış və onlara texniki yardımın göstərilməsi təmin olunmuşdur.

Nazirliyin "Qəbul otağı"nda Xidmətin əməkdaşları tərəfindən 1744 vətəndaş qəbul edilmiş, onların müxtəlif mövzularla bağlı ərizə, şikayət və sorğuları qəbul edilərək araşdırılmasının təşkili istiqamətində müvafiq tədbirlər həyata keçirilmişdir.

Xidmət tərəfindən görülmüş tədbirlərin nəticəsi olaraq vətəndaşlara gecikdirilmiş və ödənilməli olan 178714,10 manat məbləğində vəsaitin ödənilməsi təmin edilmişdir.

Ümumi ödənişlərdən:
95%-i (170557,73 manat)- əmək haqqı;
3 %-i (5494,43 manat) -sosial müavinətlər və kompensasiya;
2%-i (2661,94 manat)- zərərə görə ödəncdən ibarət olmuşdur.

Hesabat dövründə əmək müqavilələrinə qanunvericiliyin tələbləri pozulmaqla xitam verilmiş 88 nəfər öz əvvəlki işlərinə bərpa edilmiş, bu işçilər barəsində yol verilmiş qanun pozuntularının aradan qaldırılması təmin edilmişdir.

İstehsalatda baş verən bədbəxt hadisələrin qarşısının alınması, bu hadisələr zamanı həyatını itirənlərin və xəsarət alanların sayının minimuma endirilməsi məqsədi ilə Xidmət tərəfindən il ərzində bir sıra maarifləndirici və qabaqlayıcı tədbirlər həyata keçirilmişdir.

2019-cu il ərzində ərzində Dövlət Əmək Müfəttişliyi Xidmətinin təsdiq edilmiş iş planına uyğun olaraq 60 sayda maarifləndirmə tədbiri keçirilmişdir. Bu tədbirlər aidiyyəti dövlət orqanlarının, sosial partnyorların və subyektlərin iştirakı ilə əsasən uşaq əməyinin istismarının qarşısının alınması, əməyin mühafizəsi normalarına əməl olunması, əmək müqaviləsinin bağlanması, müqavilələrin şərtlərinin dəyişdirilməsi və xitam verilməsinin əsasları, əmək qanunvericiliyinin tətbiq olunması mövzularına həsr olumuşdur.